# I BÖLMƏ.
# MALİYYƏ, BANKLAR VƏ AUDİT

**UOT: 336.645.1:336.64**

***Elnurə Bünyat qızı MƏMMƏDOVA***
***Azərbaycan Kooperasiya Universitetinin "Maliyyə və bank işi" kafedrasının müdiri, dosent, iqtisad üzrə fəlsəfə doktoru,***
***E-mail: mamedova.el @ inbox.ru***
***Telefon:+994505125142***

## POSTPANDEMİYA DÖVRÜNDƏ AZƏRBAYCANDA İNVESTİSİYA MÜHİTİNİN YAXŞILAŞDIRILMASI PRİORİTETLƏRİ

*Xülasə*

**Tədqiq olunan mövzunun aktuallığı** baxımından, müasir dövrdə, xüsusilə COVİD-19 pandemiyasının mənfi təsirinin artdığı bir şəraitdə, həmcinin postpandemiya dövründə investisiya mühitinin cəlbediciliyinin artırılması vacib məsələlərdən biri kimi diqqət cəkir. Belə ki, investisiya mühitinin yaxşılaşdırılması ilə əlaqədar olaraq müvafiq şəraitin yaradılması və investisiyaların hərəkətinə mane olan halların aradan qaldırılması üçün uzunmüddətli dövr üçün investisiya potensialının formalaşdırılması tədbirləri görülməlidir.

**Tədqiqatın metodları** baxımından isə qeyd etmək olar ki, məqalənin hazırlanmasında iqtisad elmində geniş istifadə olunan bir qrup metodlardan istifadə edilmişdir. İlk növbədə, təhlil və ümumiləşdirmə metoduna üstünlük verilmişdir. Bir sıra istiqamətlər üzrə investisiya proseslərinin və fəaliyyətinin obyektiv baxılması və təhlil olunması məqsədilə müqayisəli təhlil, sintez, histoqramma və cədvəllərdən istifadə olunmuşdur.

**Problemin öyrənilməsi** baxımından, müxtəlif tədqiqatlar diqqət çəkir və investisiya mühitinin səmərəliliyinin artırılması problemlərinin bütün dünya ölkələrində aktual olaraq qalmasını qeyd etmək mümkündür. Bir qrup ölkələr investisiyalar ixracını artırmaq istəyirsə, digər böyük bir qrup ölkələr isə daha çox investisiyalar cəlb etmək üçün səylər göstərirlər.

**Tədqiqatın hipotezası** əsas etibarilə postpandemiya dövründə Azərbaycanda daha cəlbedici investisiya mühitinə ehtiyacın olması ilə bağlıdır. Ölkəmizdə strateji iqtisadi hədəflər, o cümlədən işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi ilə bağlı prioritetlər yeni yanaşmaları və güclü investisiya siyasətini tələb edir.

**Araşdırmanın məqsədi** isə ilk növbədə, müasir pandemiya şəraitindəki obyektiv reallıqlardan yanaşmaqla, postpandemiya dövründə Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılması prioritetlərinin müəyyənləşdirilməsi və dövlətin investisiya siyasətinin təkmilləşdirilməsinə diqqətin yönəldilməsidir.

***Açar sözlər: investisiya siyasəti, investisiya fəaliyyəti, COVİD-19 pandemiyası, investisiya mühiti, investisiya fəallığı, investisiya mexanizmləri, dövlətin investisiya siyasəti, investisiya mühitinin səmərəlilik problemləri.***

### *Giriş*

İnvestisiya potensialının yeni mənbələrinin formalaşdırılması və inkişaf etdirilməsi üçün mövcud resurslardan – təbii və iqtisadi resurslardan səmərəli istifadə edilməsi infrastrukturu yaradılmalı və fəaliyyət mexanizmləri hazırlanaraq tətbiq olunmalıdır. İqtisadi inkişaf prosesləri iştirakçılarına dövlət dəstəyinin göstərilməsi, bununla əlaqədar zəruri mexanizmlərin hazırlanaraq tətbiq

olunması, təsərrüfat və sahibkarlıq subyektlərinin ucuz və uzunmüddətli kredit resurslarına çıxışlarının və əlçatanlığının təmin edilməsi, investisiya layihələrinin kifayət qədər dərindən əsaslandırılması və onların cəlbediciliyinə nail olunması tədbirləri görülməlidir. İnvestisiya fəaliyyəti ilə bağlı məsələlərə strateji yanaşmalar gücləndirilməli və investisiya mühitinin əsas elementləri qlobal investisiya çağırışlarına uyğunlaşdırılmalıdır [2]. Müasir dövrdə investisiya mühiti ölkənin investisiya bazarının cəlbedicilik səviyyəsini və investisiya riskinin əhatəsini özündə əks etdirən vacib komponent kimi dövlətin investisiya siyasətinin aparıcı tərkib hissəsi kimi qiymətləndirilməli və bununla bağlı tələb olunan tədbirlərin sistemli şəkildə reallaşdırılmasına nail olunmalıdır [3].

Buna görə də investisiya problemləri ilə bağlı iqtisadi ədəbiyyatlarda ardıcıl araşdırmaların olduğunu söyləmək olar. Azərbaycan özünün neft strategiyasını reallaşdırmaqla, neft-qaz sektorunda xarici investorlar üçün müəyyən güzəştlər paketinə malik olan əlverişli investisiya mühiti yarada bilmişdir. Bu modelin əsasında neft sənayesi başlıca rol oynayır, amma əsas məqsəd bütünlükdə ölkə iqtisadiyyatında investisiya mühitinin daha cəlbedici təşkili və qeyri-neft sahələrinin inkişaf etdirilməsi, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi vəzifələrinin ohdəsindən gəlməkdə investisiyaların əhəmiyyətini ön plana çəkmək və onların intensiv cəlbi üçün əlverişli mühitin yaradılmasıdır. İqtisadi ədəbiyyatlarda əsas etibarilə ölkə iqtisadiyyatının dayanıqlı inkişafında və artımında xarici investisiyaların rolunun tədqiqinə, investisiyalar və investisiya mühitinin əlverişli olmasına, dövlət investisiya siyasətinin müasir tendensiyalarına və perspektivlərinə toxunulur. Son 20 il ərzində Azərbaycanda investisiya mühitinin səmərəliliyinin artırılması problemləri üzrə azərbaycanlı alim-tədqiqatçıların bir qrupunun - B.X.Ataşov, A.Ş.Şəkərəliyev, T.H.Hüseynov, M.A.Əhmədov, Ş.T.Əliyev, A.E.Quliyeva, S.Z.İsayev və digərlərinin elmi əsərlərində Azərbaycan iqtisadiyyatının müasir problemlərinin, həmçinin investisiya fəaliyyətinin mexanizmləri, investisiya mühitinin adekvatlığı və səmərəlilik problemləri diqqət mərkəzində saxlanılmışdır. Lakin, postpandemiya dövründə investisiya mühitinin yaxşılaşdırılması istiqamətlərinin daha dərindən araşdırılması və ciddi elmi arqumentlər əsasında müəyyənləşdirilməsi bir zərurət olaraq qalır.

Belə şəraitdə hazırkı dövlət investisiya siyasətinin əsas mexanizmlərinin maksimum təkmilləşdirilməsi qaçılmaz bir proses kimi baxılır. Baxılan problemlərin və onların həlli yollarının müəyyənləşdirilməsi kontekstində praktiki əhəmiyyətdən baxdıqda qeyd etmək olar ki, Azərbaycan iqtisadiyyatı qlobal təsirlər səbəbindən, həmcinin COVİD-19 pandemiyasının mənfi fəsadlarından irəli gələn amillər nəzərə alınmaqla, yeni inkişaf drayverləri formalaşdırmalı, daha işlək iqtisadi fəaliyyət mexanizmləri, o cümlədən investisiya mexanizmləri hazırlayaraq tətbiq etməlidir. Bu baxımdan, Azərbaycan və onun kimi digər inkişaf etməkdə olan ölkələr üçün investisiya mühitinin səmərəliliyinin artırılması strateji əhəmiyyət kəsb edir. Burada yer almış hipotezalar, tövsiyələr və təkliflər Azərbaycanda investisiya mühitinin səmərəliliyinin artırılması problemləri və perspektivləri üzrə konseptual yanaşmaların formalaşmasında, daha təsirli investisiya mexanizmlərinin hazırlanmasında və birbaşa investisiyaların cəlbində səmərəli ola bilər.

Belə ki, COVİD-19 pandemiyasının yaratdığı yeni şəraitdə və həm də postpandemiya dövründə investisiyaların yönəldilməsi ilə bağlı fəaliyyətin xeyli məhdudlaşdırılması problemlərinin daha intensiv və təsirli həlli yollarının müəyyənləşdirilməsi, adekvat investisiya mexanizmlərinin işlənməsi və tətbiqi vacib məsələlərdəndir. Hər bir iqtisadi fəaliyyət növünün və ya müəssisənin dövrün tələblərinə, inkişaf səmtlərinə və qlobal səviyyədə baş verən dəyişikliklərə uyğun olaraq investisiya siyasəti və strategiyasının olması gərəkdir. Başqa bir mühüm məsələ isə 2020-ci ilin sentyabrın 27-dən başlayaraq 44 günlük müharibədə Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi ilə bağlıdır. Böyük Qarabağ Zəfərindən sonra yaranmış obyektiv reallıqlar baxımından, həmcinin işğal olunmuş ərazilərdə yeni yaradılmış Qarabağ iqtisadi rayonunda və Şərqi Zəngəzur iqtisadi rayonunda daha məhsuldar fəaliyyət göstərmələrinə və ən yüksək texnologiyalar əsasında işlərini qurmalarına ciddi ehtiyac yaranmışdır. Hazırda əsas məqsəd işğaldan azad olunmuş ərazilərin kompleks və sistemli şəkildə dirçəldilməsi, bərpa işlərinin səmərəli təşkili üçün maliyyə-investisiya təminatının gücləndirilməsi mexnizmlərinin yaradılmasından və tətbiq olunmasından ibarətdir. Bütün bunlar isə daha fəal şəkildə və iri məbləğdə investisiyaların cəlbini şərtləndirir.

Bütün bunlar göstərir ki, hazırda Cənubi Qafqaz iqtisadiyyatında əsas paya malik olan Azərbaycan regionda və dünya səviyyəsində özünü iqtisadi gücünün artırılması və rəqabətqabiliyyətliliyinin gücləndirilməsi üçün investisiya mühitinin səmərəliliyinin artırılması istiqamətində dövlət siyasətini maksimum təkmilləşdirməli, dünya təcrübəsindən yanaşmaqla daha işlək mexanizmlər hazırlanmalı və tətbiq olunmalıdır.

***Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılması və investisiya fəallığının artırılmasının müasir vəziyyətinin təhlili.***

Qeyd edək ki, investisiya mühitinin yaxşılaşdırılması və investisiya fəallığının artırılması bir-biri ilə əlaqəli məsələlərdir. Dünya ölkələrində investisiya fəaliyyətinin səmərəliliyinin artırılması üçün birinci növbədə investisiya mühitinin cəlbediciliyinin təmin olunması ön plana çəkilir və bu özünü dünya təcrübəsində doğrultmuşdur. Dünya səviyyəsində əsas investisiya resursları, o cümlədən, investisiya ixracı potensialı iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə cəmlənmişdir. Amma son 20-30 ildə bir çox iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələr dünya investisiya bazarında və maliyyə resurslarının bölüşdürülməsində, 3-cü ölkələrə yönəldilməsində əhəmiyyətli şəkildə fəallıq göstərsələr də, ABŞ və digər iqtisadi cəhətdən inkişaf etmiş ölkələr dünya səviyyəsində birbaşa investisiyaların yönəldilməsində önəmli yerləri tuturlar [4]. Məsələn, son illərdə dünya investisiya bazarının qısa təhlilindən və xarakteristikasından görmək mümkündür ki, dünya üzrə orta illik birbaşa investisiyaların həcmi 1,3 trln. dollar səviyyəsində olmuşdur və bu investisiyaların əsas ixracatçıları ABŞ və iqtisadi cəhətdən inkişaf etmiş ölkələdir. Düzdür, investisiya fəallığı inkişaf etmiş ölkələrdə son illər ərzində nisbətən zəifləmişdir, amma bununla belə dünya maliyyə və investisiya bazarlarında bu ölkələrin payı hələ də yüksək olaraq qalmaqdadır. Digər tərəfdən, iqtisadi fəallığın təmin olunmasında, xüsusilə regionlarda sosial-iqtisadi inkişaf problemlərinin həll edilməsi məqsədilə layihələrin reallaşdırılmasında investisiyaların önəmli rolu vardır [5].

İnvestisiya mühitinin səmərəliliyinin artırılması və investisiya fəallığının gücləndirilməsi ölkədə maliyyə bazarının intensiv inkişafına, maliyyə-kredit və maliyyə-investisiya siyasətinin təkmilləşdirilməsinə, iqtisadi artımın dinamikliyinin təmin edilməsinə, iqtisadi inkişaf hədəflərinin reallaşdırılmasına, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən təsərrüfat və kommersiya subyektlərinin maliyyə və investisiya resursları ilə təmin edilməsinə əlavə potensial formalaşdırmışdır. Eyni zamanda, investisiyalardan səmərəli istifadə edilməsi ilə bərabər, investisiya resurslarından səmərəli istifadənin dayanıqlı olmasını təmin edə biləcək mexanizmlərin hazırlanması və tətbiqi vacib hesab olunur [6]. Qlobal səviyyədə dövlətlərin investisiya siyasətlərinin yeni çağırışlara uyğun şəkildə tənzimlənməsi məsələləri də iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin investisiya siyasətlərinin tənzimlənməsi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir [7]. İnvestisiyaların idarəedilməsi və uzunmüddətli investisiya qoyuluşlarında qlobal təsirlərin maksimum obyektiv qiymətləndirilməsi tədbirlərinin görülməsi vacib hesab olunur. Hər il dünya səviyyəsində 3 trln. dollardan çox investisiyaların yatırılması tələb olunur və bununla əlaqədar müxtəlif risklər ortaya çıxır. Birbaşa investisiyalar iqtisadi artımın yeni mənbələrinin yaradılmasında və rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasında ciddi önəm kəsb edirlər. Belə ki, ÜDM-in 20-25% həcmi səviyyəsində investisiyaların cəlb olunması orta illik iqtisadi artım tempinin 2,5-3% səviyyəsində əldə olunmasına imkan verər [8]. Məsələn, Böyük Britaniyada birbaşa investisiyaların cəlbinin artırılmasında ofşor ada modellərindən bacarıqla istifadə olunur. Vircin adasında qeydə alınmış sahibkarlıq və biznes subyektləri vasitəsilə cəlb olunan birbaşa investisiyaların həcmi 125-130 mlrd. dollar səviyyəsindədir və bu göstərici dünya səviyyəsində 2-ci yer deməkdir.

Qlobal iqtisadi çağırışlar şəraitində və dünyada baş verən iqtisadi, maliyyə böhranlarının mənfi fəsadlarının davam etdiyi bir dövrdə iqtisadi artımın təmin edilməsi problemləri kifayət qədər mühüm əhəmiyyət kəsb edir. İqtisadi artımın təşkili bir çox problemlərin kompleks və sistemli baxılmasını şərtləndirir. Bu sırada mühüm yerlərdən birini investisiyalar tutur. İnvestisiya siyasətinin adekvatlığı və bu sahədə fəaliyyət mexanizmlərinin səmərəli təşkili iqtisadi proseslərə, o cümlədən iqtisadi artıma əlavə stimullar verir, iqtisadi fəallığı artırır [9]. Dünya təcrübəsində investisiya

mühitinin dövrün tələblərinə uyğun şəkildə formalaşdırılması və inkişaf etdirilməsi metodikaları mövcuddur. Bu sırada vacib məqamlardan biri investisiya mühitinin formalaşdırılması və inkişafına ciddi təsir edən investisiya risklərinin əhatəsinin maksimum optimal qiymətləndirilməsi və nəzərə alınmasıdır [10]. Hər bir ölkənin investisiya cəlbediciliyinin qiymətləndirilməsinə müasir yanaşmalar təmin olunmalıdır. Beynəlxalq səviyyədə aparılan araşdırmalar, investisiyaların səmərəli axını sayəsində iqtisadi mexanizmlərin məhsuldarlığının yüksəldilməsi məsələləri və investisiyaların cəlbinin intensivliyinə nail olunması müasir dövrdə aktuallığı ilə diqqət çəkir [11]. İnvestisiyaların davamlı və intensiv cəlbinin təşkili nəticəsində iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf prioritetlərinin reallaşdırılması üçün əlavə imkanlar formalaşdırılır. Xüsusilə, xarici investisiyaların cəlbi üzrə işlək mexanizmlərin hazırlanması və fəal şəkildə tətbiqi əhəmiyyətli iqtisadi artım üçün əsas zəminlərdən hesab olunur [12]. Belə ki, intensiv xarici investisiyalar axını hesabına iqtisadi inkişafın artımı prioritetləri üzrə fəaliyyət tədbirlərinin etibarlı maliyyə təminatı formalaşdırılır, zəruri modernizasiya və yüksək texnologiyalar əsaslı istehsal sahələrinin yaradılması təmin edilir. Nəticədə, məhsuldarlığın əhəmiyyətli artımına şərait yaranır və iqtisadi artımın uzunmüddətli dövr üçün yeni mənbələri formalaşdırılır.

Hər bir ölkədə investisiyaların cəlbi və hərəkətinin strateji aspektlərinin dövlət investisiya siyasətində ciddi şəkildə nəzərə alınması vacib şərtlərdəndir [13]. Bunun üçün ölkədə investisiyalardan səmərəli istifadə edilməsinə müvafiq olaraq şəraitin və infrastrukturun yaradılması təmin olunmalı, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələlərinə daha strateji yanaşmalar ortaya qoyulmalı, investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi üçün zəruri tədbirlər görülməli və bunlarla əlaqədar olaraq çevik vergi siyasəti yürüdülməli, səmərəli fiskal alətlər hazırlanmalı, onların stimullaşdırıcı xüsusiyyətlərinə daha çox önəm verilməli və xarici investorların ölkəyə fəal şəkildə gəlməsi davamlı şəkildə stimullaşdırılmalıdır. Beynəlxlaq təcrübədə investisiya mühitinin maksimum cəlbedici olmasında, burada tətbiq olunan mexanizmlərin və alətlərin investorlar tərəfindən maraqla qarşılanmasında investisiya layihələrinin resurs təminatı, yəni xammalla uzunmüddətli dövr üçün təminat problemləri mühüm əhəmiyyət kəsb edir və investisiya mühitinin səmərəliliyinin artırılmasında bu amillərə strateji yanaşmalar diqqət mərkəzində saxlanılır. Eyni zamanda, ölkənin iqtisadi priroitetləri çərçivəsində investisiya mexanizmlərinin hazırlanması və reallaşdırılmasında ardıcıl tədbirlərin görülməsi, bu işin sistemli formada olması, tətbiq edilən mexanizmlərin səmərəliliyinin yüksəldilməsi və investisiya fəallığının təmin olunması məsələlərinə də xüsusi önəm verilməlidir [14]. İnvestisiya mühitinin müasir dövrün tələblərinə uyğun şəkildə formalaşdırılması və onun səmərəliliyinin artırılması məsələləri bir sıra tədbirlərin görülməsini şərtləndirir. Bu sırada əsas diqqət dünya təcrübəsindən yanaşdıqda, qanunvericilik bazasının işlək və səmərəli olması və fəaliyyət mexanzimlərinin məhsuldarlığı ilə bilavasitə bağlı olan məsələlərdir. Digər tərəfdən, investisiya fəallığının artırılması və investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məsələlərinə daha çox diqqət yetirilməlidir [15]. Məsələn, investisiyaların formalaşdırılması və fəal şəkildə real iqtisadiyyat sektorlarına yönəldilməsinin dövlət tərəfindən stimullaşdırılması, dövlət dəstəyi mexanizmlərinin hazırlanması və intensiv şəkildə tətbiq edilməsi vacib hesab olunur [16]. Eyni zamanda, vergiqoyma sistemi və fiskal stimullaşdırmanın səviyyəsi investorlar üçün, həmçinin investisiya bazarının bütün iştirakçıları üçün cəlbedici olmalı və investisiyalardan səmərəli istifadəyə imkan verən müvafiq infrastruktur şəbəkəsi formalaşdırılmalıdır [17]. Ölkədə investisiya fəaliyyəti proseslərində kifayət qədər səmərəliliyi ilə fərqlənən mexanizmlərə yer verilməli və investisiya siyasətinin təkmilləşdirilməsi tədbirləri görülməli, maliyyə bazarının dinamikliyi təmin olunmalı, maliyyə-kredit sisteminin fəaliyyət mexanizmlərinə strateji yanaşmalar ortaya qoyulmalı, bank sisteminin çevikliyi, əvvəldə qeyd etdiyimiz kimi, ölkədəki maliyyə-investisiya infrastrukturunun dünya standartları səviyyəsində formalaşdırılması, investisiya fəaliyyəti iştirakçılarının maraqlarının qorunması, investisiyaların hərəkətini məhdudlaşdıran halların qarşısının alınması tədbirləri xüsusi diqqət mərkəzində saxlanılmalı və investisiya mühitinin cəlbediciliyi maksimum yüksək səviyyədə təmin edilməlidir. Bundan əlavə, investisiya mühitinin vacib elementləri və komponentləri obyektiv olaraq qiymətləndirilməli, bunlarla bağlı fəaliyyət prosesləri-

nin təsiri öyrənilməli, yatırılan investisiyaların iqtisadi artıma və ümumilikdə iqtisadi inkişaf proseslərinə multiplikativ təsiri, yeni iş yerlərinin yaradılmasında əhəmiyyəti dəyərləndirilməlidir [18]. Eyni zamanda, investisiya mühiti özündə sosial, iqtisadi, hüquqi, siyasi, maliyyə və s. amilləri birləşdirir və bu amillər baxımından investisiya mühitinin səmərəlilik problemlərinə strateji yanaşmaların təmin edilməsi ön plana çəkilməlidir [19]. Belə ki, hazırkı şəraitdə pandemiyanın təsiri nəticəsində investisiyalarla bağlı strateji yanaşmalar və investisiya fəallığının mexanizmlərinin təkmilləşdirilməsi məsələləri aktual xarakter almışdır [20].

***Xarici investisiyaların cəlb edilməsi üzrə daha məhsuldar mexanizmlərin hazırlanması və reallaşdırılması.***

Qeyd edək ki, Azərbaycan özünün müstəqilliyini bərpa etdikdən sonra, strateji dövlət əhəmiyyətli məsələlərdən biri də investisiya siyasətinin formalaşdırılması və milli maraqlara uyğun olaraq təşkil edilməsindən ibarət olmuşdur. Belə bir şəraitdə 15 yanvar 1992-ci il tarixdə “Xarici investisiyanın qorunması haqqında” ölkə qanunu qəbul edilmişdir [21]. Həmin qanunu qəbul etməkdə əsas məqsəd xarici investorların ölkəmizə gəlməsinin stimullaşdırılması və hüquqi əsaslarının formalaşdırılmasının təmin edilməsidir. 1994-cü ildə “Əsrin Kontraktı”nın imzalanmasından sonra ölkəmizə heç də az olmayan xarici şirkətlər gəlməyə və əhəmiyyətli səviyyədə maliyyə resursları daxil olmağa başladı. Həmin dövrdə investisiya fəaliyyəti ilə bağlı qanunvericilik aktlarının daha da təkmilləşdirilməsi lazım gəlmiş, bu məqsədlə 13 yanvar 1995-ci ildə “İnvestisiya fəaliyyəti haqqında” Qanun qəbul edilmişdir [22]. Enerji layihələrinin reallaşdırılması, yeni yataqların istismarı ilə bağlı regional və beynəlxalq səviyyəli kontraktların bağlanılması ökəmizdə investisiya fəallığını əsasən təmin etmişdir. Lakin, investisiyalar daha çox neft və qaz sektoruna daxil olduğundan, ölkədə digər iqtisadiyyat sahələrinin modernizasiya edilməsi və yüksək texnologiyalar əsasında inkişafına nail olunması üçün əlavə maliyyə resusları mənbələrinin axtarılması zərurəti vardır. 22 oktyabr 2010-cu il tarixdə “İnvestisiya fondları haqqında” Qanunun qəbul edilməsinə baxmayaraq, hələ də ölkəmizdə qeyri-neft sektoru sahələrində investisiya fəallığı aşağı səviyyədədir [23]. Bununla belə, ölkəmizdə investisiya fəaliyyətinin stimullaşdırılması xarici investorların daha fəal şəkildə investisiyalar yatırması məqsədilə onların hüquqlarının qorunması istiqamətində əlavə tədbirlərin görülməsi dövlətin prioritetlik təşkil edən fəaliyyət istiqamətləri kimi baxılmaqdadır. Məsələn, ölkə Prezidentinin 18 yanvar 2018-ci il tarixli Sərəncamı ilə investisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra əlavə tədbirlər müəyyənləşdirilmişdir [24]. İnvestisiya fəaliyyətinin daha da təkmilləşdirilmiş mexanizmlərinin dövriyyəyə cəlb edilməsi prioritetlərinin üstünlük təşkil edəcəyi gözlənilir. İnvestisiya mühitinin maksimum əlverişli səviyyəyə çatdırılması üçün dövlət tənzimlənməsi mexanizmlərindən fəal və səmərəli istifadə edilməsi vacib şərtlərdəndir [25]. Eyni zamanda, ölkəmizdə xarici investisiyalar üçün əlverişli şərait, o cümlədən səmərəli vergi və gömrük rejimləri formalaşdırılmışdır [26]. Azərbaycanda maliyyə bazarının inkişaf etdirilməsi, xüsusilə, təsərrüfat subyektlərinin iqtisadi fəallığının yüksəldilməsi, onların investisiya və kredit resurslarına əlçatanlığının təmin edilməsi mexanizmlərinin yaradılmasına önəm verilməkdədir. [27]. Belə ki, ölkə Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı ilə yaradılmış Kredit Zəmanət Fondu ölkəmizdə maliyyə bazarının inkişafına və investisiya mühitinin daha da yaxşılaşdırılmasına əlavə təkan verə bilər [28]. Digər tərəfdən, bir sıra stimullaşdırıcı mexanizmlərin, o cümlədən vergi sisteminin təkmilləşdirilməsi hesabına stimullaşdırıcı vergi güzəştlərinin müəyyənləşdirilməsi milli iqtisadiyyatın inkişafının sürətləndirilməsində, onun innovativ inkişafının təmin edilməsində əhəmiyyətli rol oynaya bilər.

Şəkil 1-də Azərbaycanda 2005-2020-ci illərdə bütün mənbələr üzrə xarici investisiyalar, daxili və xarici investisiyaların dinamikası qrafik formasında əks olunmuşdur və buradan da göründüyü kimi 2015-ci ildə bütün mənbələr üzrə investisiyaların həcmi 19,5 mlrd. $ təşkil etmiş, amma sonrakı illərdə azalma baş vermişdir, son iki ildə isə bu azalma daha da sürətlənmiş və 2020-ci ilin yekununda cəmisi 13,1 mlrd. $ səviyyəsində olmuşdur. Bu onu göstərir ki, Azərbaycanda yeni

investisiya mənbələrinin formalaşdırılmasına və xüsusilə xarici investisiyaların cəlb olunması məsələlərinə daha çox diqqət yetirilməlidir.




***Şəkil 1. Azərbaycanda 2011-2020-ci illərdə xarici investisiyaların sahələr üzrə bölgüsü, mln. ABŞ dolları (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az).***




***Şəkil 2. Azərbaycanda 2005-2020-ci illərdə neft sektoruna və qeyri-neft sektoruna birbaşa investisiyaların dinamikası, mln. ABŞ dolları (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az).***

Şəkil 2-də Azərbaycanda 2005-2020-ci illərdə neft sektoruna və qeyri-neft sektoruna birbaşa investisiyaların dinamikası təhlil olunmuşdur. Təhlildən görmək olar ki, 2016-cı ilədək olan dövrdə qeyri-neft sektoruna investisiyaların yatırılması ciddi artım nümayiş etdirmişdir-7,4 dəfə. Həmin dövr ərzində neft sektoruna birbaşa investisiyaların yönəldilməsi üzrə artım isə, cəmisi 47,4% səviyyəsində olmuşdur. Sonrakı illərdə qeyri-neft sektoruna investisiyaların həcmi o qədər də artmamış, əksinə, 2020-ci ildə bir qədər də azalaraq 606 mln. dollara yaxın olmuşdur. Neft sektoruna ivestisiyaların həcmi isə 2018-2020-ci illərdə artmaqda davam etmiş və 3,1 mlrd. dollardan 3,9 mlrd. dollaradək yüksəlmişdir (bax: şəkil 2).

Qeyd etmək lazımdır ki, ölkədə əsas kapitala yönəldilən investisiyaların diversifikasiyalaşdırılması yeni investisiya mənbələrinin formalaşdırılmasını və xüsusilə, fəal şəkildə xarici investisiyaların cəlbini şərtləndirir. Cədvəl 1-də Azərbaycanda əsas kapitala yönəldilən xarici investisiyaların dinamikası verilmişdir və təhlil əsasında demək olar ki, əsas kapitala yönəlik investisiyalar 2000-2016-cı ilədək daim artım nümayiş etdirmişdir və həmin dövr ərzində illik investisiyaların həcmi 507,5 mln. manatdan 9282,5 mln. manatadək yüksəlmişdir. Amma burada da investisiyaların həcmi sabit olmamışdır və 2017-2018-cı illərdə azalma tendensiyası üstünlük təşkil etmişdir, bununla belə 2019-cu ildə yenidən artım tempi bərpa olunmuşdur. Təəssüf ki, elə iqtisadiyyat sahələri vardır ki, xarici investisiyaların həcmi mövcud potensialdan xeyli aşağıdır və bu, hesab edirik ki, investisiya mühitinin səmərəliliyinin istənilən səviyyədə olmaması ilə bağlıdır. Məsələn, kənd təsərrüfatı sektoruna yönəldilən xarici investisiyalar qeyd etdiyimiz kimi aşağı səviyyədədir, baxmayaraq ki, 2000-2019-cu illərdə bu göstərici orta illik 5 dəfəyə yaxın artmış, bununla belə 2019-cu ilin yekununda cəmisi 21 mln. manata yaxın olmuşdur. Ölkənin sənaye sektoruna yönəldilən investisiyaların əhəmiyyətli hissəsi mədənçıxarma sənayesinə-daha dəqiq desək, neft-sektoruna aiddir. 2019-cu ilin yekununda sənaye sektoruna yönəldilən 4,4 mlrd. manat investisiyanın 77,3 %-i mədənçıxarma sənayesinin payına düşür (bax: cədvəl 1).

***Cədvəl 1.***

***Azərbaycanda 2000-2019-cu illərdə əsas kapitala yönəldilən xarici investisiyalar (mln. man.)***

| | 2000 | 2005 | 2007 | 2008 | 2009 | 2010 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əsas kapitala yönəlik vəsaitlər, cəmi | 507,5 | 3665,0 | 2844,5 | 2242,0 | 1645,0 | 2406,5 | 4903,6 | 6898,5 | 9282,5 | 8665,1 | 5370,0 | 5672,4 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq | 4,3 | 16,2 | 28,0 | 13,7 | 9,7 | 1,0 | 14,0 | 11,3 | 15,0 | 50,5 | 12,5 | 20,9 |
| Sənaye | 463,2 | 3349,9 | 2675,9 | 2011,0 | 1403,3 | 1917,3 | 4268,8 | 5741,9 | 7350,9 | 6989,5 | 3993,1 | 4 411,3 |
| Mədənçıxarma sənayesi | 335,7 | 3209,7 | 2576,9 | 1908,0 | 1271,5 | 1882,9 | 4184,6 | 5514,3 | 6805,0 | 6288,9 | 3498,7 | 3 443,8 |
| Xam neftin və təbii qazın hasilatı, bu sahəyə xidmətlərin göstərilməsi | 335,7 | 3209,7 | 2573,3 | 1908,0 | 1215,5 | 1881,0 | 4184,6 | 5514,3 | 6805,0 | 6288,9 | 3498,7 | 3 443,8 |
| Emal sənayesi | 40,5 | 35,9 | 2,1 | 43,1 | 21,4 | 1,1 | 0,9 | 16,1 | - | 32,0 | 25,6 | 798,0 |
| Elektrik enerjisi, qaz, buxar istehsalı, bölgüsü və təchizatı | 74,3 | 98,5 | 88,3 | 47,6 | 69,7 | 23,0 | 75,8 | 16,5 | 72,3 | 199,7 | 157,9 | 0,4 |
| Su təchizatı; tullantıların təmizlənməsi, emalı | 12,7 | 5,9 | 8,7 | 12,4 | 40,7 | 10,3 | 7,5 | 195,0 | 473,6 | 468,9 | 310,9 | 169,1 |
| Tikinti | 2,2 | 43,5 | 2,2 | 10,2 | 0,1 | 60,9 | 299,4 | 632,3 | 1492,7 | 1072,9 | 965,1 | 654,5 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 0,6 | 1,3 | 0,3 | 0,2 | 0,1 | 16,9 | - | | - | - | | |
| Nəqliyyat | 8,1 | 217,8 | 108,4 | 171,3 | 215,4 | 395,1 | 313,2 | 375,3 | 399,1 | 548,1 | 312,2 | 654,5 |
| İnformasiya və rabitə | 2,8 | 17,8 | 16,7 | 31,7 | - | - | - | 122,9 | 22,1 | - | 83,1 | 20,4 |

*Qeyd: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az.*

Qeyd etmək mümkündür ki, Azərbaycan iqtisadiyyatının investisiya potensialı yüksəkdir, amma bu potensialın daha sistemli və məqsədli şəkildə öyrənilməsi, işlək mexanizmlərin müəyyənləşdirilməsi, beynəlxalq təcrübənin daha dərindən mənimsənilməsi vacibdir [29]. Buna görə də, ölkədə mövcud investisiya mühitinin obyektiv olaraq qiymətləndirilməsi və investisiya poten-

sialının artırılması perspektivlərinin açıqlanması məqsədəuyğun olardı [30]. Məlumdur ki, investisiya bütövlükdə iqtisadiyyat, ayrı-ayrı sahə və müəssisələr səviyyəsində formalaşan iqtisadi proseslərdə mühüm rola malikdir [31]. İnvestisiyanın keyfiyyət və kəmiyyətcə dəyişmə parametrlərindən ölkənin istehsal potensialı, istehsal fəaliyyətinin səmərəliliyi, istehsalın sahə və təkrar istehsal quruluşu, iqtisadi artım tempi formalaşır. Bununla belə, açıq iqtisadiyyatda investisiyanın həyata keçirilməsində məcmu qənaətlə yanaşı, xarici investisiyanın cəlb edilməsi də mühüm rol oynayır [32]. Əvvəldə qeyd etdiyimiz kimi, Azərbaycan böyük investisiya resursları ilə zəngindir, məhz bu səbəbə görə Azərbaycan kifayət qədər maliyyə imkanlarına malik olan dövlət kimi artıq hasilat üzrə pay bölgüsü yeni sazişlərdən öz imkanı daxilində imtina etməli, daha mühüm və qlobal əhəmiyyətə malik müqavilələr istisna olmaqla, belə prinsiplərlə bağlanan müqavilələrin şərtləri ciddi şəkildə nəzərdən keçirilməlidir [33]. Yəni uzun illər ərzində formalaşmış xarici investorların ölkəmizə inam məsələsinə xələl gətirilmədən, yeni investisiya layihələrində Azərbaycan üçün daha sərfəli investisiya mexanizmlərinin işlənməsi və eyni zamanda, xarici investisiyaların qeyri-neft sektoru sahələrinə cəlbinin stimullaşdırılması daha çox ön plana çəkilməlidir. Potensial xarici investorlarla əlaqələrin sıxlaşdırılmasına ehtiyac vardır [34]. Belə ki, postpandemiya dövründə bütün dünyada olduğu kimi, ölkəmizdə də investisiya imkanlarının məhdudlaşması probleminin həll edilməsi lazım gələcəkdir [35].

Azərbaycanda qlobal iqtisadi çağırışlar kontekstində və postpandemiya dövründə investisiya mühitinin və strukturunun qiymətləndirilməsi prinsipləri və meyarlarını bu cür ümumiləşdirməyi vacib saymışıq: 1) investisiyalar üzrə dövlət siyasətinin qlobal iqtisadi çağırışlara cavab verməsi; 2) investisiyaların cəlbi mexanizmlərinin işləkliyi və çevikliyi; 3) dövlət dəstəyi mexanizmlərinin stimullaşdırıcı xüsusiyyətləri; 4) vergi rejiminin boğucu olmaması və stimullaşdırıcı mexanizmlərin adekvatlığı; 5) gömrük rejiminin şəffaflığı və inkişaf səviyyəsi; 6) investisiya fəaliyyətinə süni müdaxilələrin yolverilməzliyi prinsipinin üstünlük təşkil etməsi; 7) investisiya fondlarının, birliklərin və cəmiyyətlərin yaradılmasının stimullaşdırılması; 8) maliyyə-investisiya bazarlarının inkişaf etdirilməsi; 9) əmlak və daşınmaz əmlak bazarının inkişafının intensivləşdirilməsi; 10) ölkənin tədiyyə balansının səviyyəsi; 11) ölkədə inflyasiyanın səviyyəsi; 12) ölkədə maliyyə və bank sektorunun inkişaf səviyyəsi; 13) investisiya-innovasiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi; 14) investisiya fəaliyyəti infrastrukturunun müasir tələblərə cavab verməsi; 15) investisiya layihələrinin prioritetliyinin təmin edilməsi; 16) xarici kapitalın sərbəst hərəkətinin qanunvericilikdə təsbit edilməsi; 17) xarici investisiyaların qorunmasının qanunvericilik aktlarının beynəlxalq təcrübəyə uyğun olması; 18) investisiya fəaliyyətinin çevikliyini təmin edən qanunvericilik bazasının formalaşdırılması və s.

### *Nəticə*

Hazırkı reallıqlar nəzərə alınmaqla, postpandemiya dövründə ölkədə investisiya mühitinin səmərəliliyinin artırılması və investisiya fəallığının təmin edilməsi ilə bağlı strateji yanaşmaların daha da əhatəsinin genişləndirilməsi tədbirlərində qeyri-neft sektoru sahələrinə investisiyaların əhəmiyyətli səviyyədə yüksəldilməsi strateji hədəf kimi baxılmalı və bununla bağlı zəruri mexanizmlər və fəaliyyət prinsipləri müəyyənləşdirilməlidir:

– investisiya mühitinin səmərəliliyinin yüksəldilməsi üçün müasir qlobal maliyyə və investisiya çağırışlarına uyğun şəkildə yeni strateji yanaşmaların təmin edilməsi bir zərurət kimi ortaya çıxmışdır və bununla bağlı kompleks tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir;

– qlobal iqtisadi çağırışlar kontekstində investisiya mühitinin və strukturunun səviyyəsinin qiymətləndirilməsi prinsipləri və meyarlarının təkmilləşdirilməsi, yenilənməsi hesabına, Azərbaycanda investisiya fəallığının artırılması, xüsusilə, xarici investisiyaların daha fəal cəlbinin təmin edilməsi üçün əlavə imkanlar yaratmaq mümkündür;

– Azərbaycanda yaxın perspektivdə dövlətin investisiya siyasətində neft-qaz sektoru sahəsində toplanmış mütərəqqi dünya təcrübəsi və onun ölkəmizin milli iqtisadi maraqlarına cavab verən səviyyədə tətbiq edilməsi amillərindən çıxış etməklə, qeyri-neft sektoru sahəsində investisiyaların

cəlbi mexanizmlərinin uzunmüddətli dövrü əhatə etmək iqtidarında olan konseptual yanaşmalarının müəyyənləşdirilməsi, mövcud mexanizmlərin tamamilə yenilənməsi təmin olunmalıdır;

– Azərbaycanda investisiya mühütinin müasir mexanizmlərinin mütərəqqi dünya təcrübəsinin şərtlərinə və prinsiplərinə adekvatlığı təmin olunmalı və bu istiqamətdə daha təsirli tədbirlərin görülməsinə ehtiyac vardır;

– qeyri-neft sektoru sahələrinə investisiyaların cəlbi ilə bağlı dövlət tərəfindən görülən tədbirlərin, dəstək mexanizmlərinin və fiskal tədbirlərin səmərəliliyinin postpandemiya tələblərinə uyğunlaşdırılması və təkmilləşdirilməsi tədbirləri görülməlidir və s.

## ƏDƏBİYYAT


1. Həsənov, R.: “Postpandemiya dövründə investisiya imkanları məhdudlaşacaq”. 20.08.2021. https://azerforum.com/az/reshad-hesenov-postpandemiya-dovrunde-investisiya-imkanlari-mehdudlashacaq.
2. Журавлева, К.А. Инвестиционный климат и его составляющие // Молодой ученый. — 2018. — № 50 (236). — С. 127-128.
3. Kərimova, T.İ. Regional investisiya risklərinin sistemli idarəetmə modelinin nəzəri-metodoloji əsaslandırılması // AMEA-nın xəbərləri, Bakı. – 2010. – № 4. – s. 74-78.
4. Васюков, Е.А. – Сравнительный анализ факторов привлекательности для ПИИ в развивающихся и развитых странах // Финансы и управление. – 2020. – № 1. – с. 38 – 52.
5. Vashakmadze E., Regional dimensions of recent investment weakness: Facts, investment needs and policy responses, Journal of Infrastructure, Policy and Development. 01.2018.-30 c.
6. Аблязова, С.Н. Факторы формирования благоприятного инвестиционного климата. Симферополь: Общество с ограниченной ответственностью. Издательство Типография “Ариал”, 2020, с. 58-61.
7. Əhmədov, M.A. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları / M.A.Əhmədov, A.C. Hüseyn. – Bakı: “İqtisad Universiteti”, – 2011, – 120 s.
8. Чувахина, Л.Г. Особенности глобальной инвестиционной политики: современные тенденции и перспективы // Вестник АГТУ. Серия: Экономика. 2019. №2. – с. 142-148.
9. Турыгин, О.М. Инвестиции как источник экономического роста: сравнительный анализ россии и других стран // Современные проблемы науки и образования. – 2014. – № 6. - http://www.science-education.ru/ru/article/view?id=16427.
10. Цогоева, М.И., Цоков З.Б. Прямые иностранные инвестиции и экономический рост.// Экономические науки, 1, 2016.- С. 35-42.
11. Stiglitz, J.E., Ocampo, J.A. Capital Market Liberalization, Globalization, and the IMF // Capital Market Liberalization and Development. New York: Oxford University Press, 2008, pp. 76-100.
12. Овчинникова, Н.Н. Влияние прямых иностранных инвестиций на экономический рост: модель потока капиталовложений в промежуточное производство. Дисс. канд. экон. наук. Москва, 2013. – 46 с.
13. Ataşov, B.X. Maliyyə bazarları. Bakı, “Kooperasiya” nəşriyyatı, 2016. -456 s.
14. Афонцев, С.А. Мировая экономика в поисках новой модели роста // Мировая экономика и международные отношения. 2014. № 2. С. 3–12.
15. Вукович, Г.Г., Беляева, Т.А. Механизм развития инвестиционной привлекательности промышленных предприятий // теория и практика общественного развития. 2014, № 11. – с. 104-115.
16. Как пандемия COVID-19 повлияла на инвестиции в инфраструктуру. 26 июня 2021. https://www.jll.ru.

17. Ковалев, П.П. Реализация организационно-экономического механизма сопровождения инвестиционных проектов в условиях внешнеторговых ограничений // Экономика: вчера, сегодня, завтра. 2018. Том 8. № 1А. -С. 80-91.
18. Новикова, В.О. Понятие инвестиционного климата: проблемы привлечения инвестиций в современной России. Воронеж: Издательско-полиграфический центр “Научная книга”, 2017. – С. 162-167.
19. Əliyev, Ş.T. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafının müasir aspektləri // Audit, 2017. № 03- s. 26-40.
20. COVID и инвестиции. 06.07.2020. https://www.vedomosti.ru/finance/articles/2020/07/05/834008-covid-investitsii.
21. “Xarici investisiyanın qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 15 yanvar 1992-ci il. № 57.
22. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 13 yanvar 1995-ci il. № 952.
23. “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 22 oktyabr 2010-cu il. № 1101-IIIQ.
24. “İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 18 yanvar 2018-ci il.
25. Vəliməmmədov, M.Ş. Azərbaycanda investisiya mühiti və dövlət tənzimlənməsinin müasir vəziyyəti// Azərbaycan İqtisadi və Sosial Araşdırmalar Jurnalı. Volume 4, Number 4/İl 4, Say 4, 2017.- P. 25-34.
26. Azərbaycan Respublikasında xarici investisiyalar üçün əlverişli vergi mühiti. http://www.taxes.gov.az .
27. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016. -59 s.
28. “Kredit zəmanət fondunun yaradılması haqqında” Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı, Bakı şəhəri, 15.09.2017-ci il.
29. Şəkərəliyev, A.Ş., Şəkərəliyev, Q.A. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: “Turxan” NPB, 2016. 536 s.
30. Guliyeva, A.E. Problems of financial and investment support modelling of the regional social and economic development// WSEAS Transactions on Business and Economics, Volume 17, 2020, Greece, Art. #72, p. 741-752.
31. Hüseynov, T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Monoqrafiya. Bakı: Elm, 2015. – 466 s.
32. İsayev, S.Z. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi. Dərs vəsaiti. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011, 188 s.
33. Humbatova, S.I., Hajiyev, N.Q. 2019. The Research Of Investment Factor In Economic Growth / Economic and social development.– P.1322-1329.
34. Nəcəf, R. Pandemiya dövründə bir sıra iri xarici investorlarla müzakirələr aparmışıq. 8 avqust 2020. https://www.e-huquq.az/az/news/xeberler/15273.html.
35. Постпандемия экономики. 21.07.2021. https://www.if24.ru/postpandemiya-ekonomiki/.

***Эльнура Буньят кызы Мамедова***
***заведующая кафедрой «Финансовое и банковское дело»,***
***доцент, доктор философии по экономике.***
***E-mail: mamedova.el@inbox.ru***
***Телефон: +994505125142***

**Приоритеты улучшения инвестиционной среды в Азербайджане в остпандемическом периоде**

***Резюме***

**Актуальность темы.** Повышение привлекательности инвестиционного климата в наше время, особенно в контексте нарастающего негативного воздействия пандемии COVID-19, а также в постпандемический период, является одним из важных вопросов. Таким образом, в связи с улучшением инвестиционного климата должны быть приняты меры по созданию соответствующих условий и устранению препятствий для движения инвестиций, для формирования инвестиционного потенциала на долгосрочную перспективу.

**Методы исследования**. Следует отметить, что при подготовке статьи использовалась группа методов, широко используемых в экономике. Прежде всего, предпочтение было отдано методу анализа и обобщения. Сравнительный анализ, синтез, гистограммы и таблицы использовались для объективного обзора и анализа инвестиционных процессов и деятельности в ряде областей.

**Изучение проблемы**. Привлекают внимание различные исследования, и можно отметить, что проблемы повышения эффективности инвестиционного климата остаются актуальными во всех странах мира. В то время как некоторые страны хотят увеличить инвестиционный экспорт, другие крупные группы пытаются привлечь больше инвестиций.

**Гипотеза исследования** в основном связана с необходимостью создания более привлекательного инвестиционного климата в Азербайджане в постпандемический период. Стратегические экономические цели нашей страны, включая приоритеты возрождения освобожденных территорий, требуют новых подходов и сильной инвестиционной политики.

**Цель исследования** является определение приоритетов улучшения инвестиционного климата в Азербайджане в постпандемический период с акцентом на совершенствование инвестиционной политики государства с учетом объективных реалий современной пандемии.

***Ключевые слова: инвестиционная политика, пандемия COVID-19, инвестиционная среда, инвестиционная активность, инвестиционные механизмы, инвестиционная политика государства, проблемы эффективности инвестиционной среды.***

***Elnura Bunyat Mamadova***
***Head of the “Finance and Banking” Department,***
***associate professor, Ph.D. in economics.***
***E-mail: mamedova.el@inbox.ru***
***Phone: +994505125142***

**Priorities for improving the investment environment in Azerbaijan in the post-pandemic period**

***Summary***

**In terms of relevance** of the research topic, increasing the attractiveness of the investment climate in modern times, especially in the context of the growing negative impact of the COVID-19 pandemic, as well as in the post-pandemic period, is one of the important issues. Thus, in

connection with the improvement of the investment climate, measures should be taken to create appropriate conditions and eliminate obstacles to the movement of investments, to form investment potential for the long term.

**In terms of research methods**, it should be noted that a group of methods widely used in economics were used in the preparation of the article. First of all, the method of analysis and generalization was preferred. Comparative analysis, synthesis, histograms and tables were used in order to objectively review and analyze investment processes and activities in a number of areas.

**In terms of studying the problem**, various studies draw attention, and it is possible to note that the problems of improving the efficiency of the investment climate remain relevant in all countries of the world. While some countries want to increase investment exports, other large groups are trying to attract more investment.

**The research hypothesis** is mainly related to the need for a more attractive investment climate in Azerbaijan during the post-pandemic period. Strategic economic goals in our country, including priorities for the revival of liberated territories, require new approaches and a strong investment policy.

**The purpose of the study** is to identify the priorities for improving the investment climate in Azerbaijan in the post-pandemic period, focusing on improving the state's investment policy, taking into account the objective realities of the modern pandemic.

***Key words: investment policy, pandemic COVID-19, investment environment, investment activity, investment mechanisms, state investment policy, problems of investment environment efficiency.***